# Dost köməyi

## Prezident İlham Əliyevin tapşırığı ilə Ukrayna xalqına növbəti humanitar yardımın göndərilməsi strateji tərəfdaşlığın əyani təzahürüdür

Beynəlxalq problemlərin həllində fəal iştirak edən, onların dialoq yolu ilə aradan qaldırılması yönündə fəal iş görən Azərbaycan həm də hər zaman ehtiyacı olan ölkələrə maliyyə və humanitar yardımlar göstərir.

Üç il öncə dünyanı ağuşuna alan, bu gün də təhlükəsi hələ tam sovuşmayan koronavirus pandemiyası bəşəriyyəti çətin sınaqla üzüzə qoyarkən Azərbaycan yenə də ənənəsinə sadiq qalaraq çətin vəziyyətdə olan ölkələrə yardım əlini uzatdı. Rusiya-Ukrayna müharibəsinin başladığı ilk vaxtdan isə Azərbaycan humanitar yardımları ilə dost Ukrayna xalqının yanında oldu. İyunun 9-da Ukrayna tərəfindən daxil olmuş müraciət nəzərə alınaraq, Prezident İlham Əliyevin tapşırığı ilə bu ölkəyə növbəti humanitar yardımın göndərilməsi də bunun növbəti davamıdır.

### Qarşılıqlı hörmət və ehtiram, ilk gündən göstərilən dəstək

Azərbaycan və Ukrayna arasında mövcud olan dostluq əlaqələri hər zaman qarşılıqlı hörmət və ehtiram prinsiplərinə əsaslanıb. Bu baxımdan təsadüfi deyildi ki, 44 günlük Vətən müharibəsində Ukrayna Azərbaycanın yanında olduğunu açıq şəkildə ifadə etdi. Ümumiyyətlə, Azərbaycan və Ukraynanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsi ölkələrimiz arasındakı dostluq əlaqələrini daha da möhkəmləndirir.

İki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində - 2022-ci il yanvarın 14-də Prezident İlham Əliyevin Ukraynaya səfəri zamanı Prezident Volodimir Zelinski ilə keçirdiyi görüşlər, dövlət başçılarının mətbuata bəyanatları, eyni zamanda strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi, mövcud əlaqələrin şaxələndirilməsi istiqamətində yeni sənədlərin imzalanması ölkələrimiz arasındakı ikitərəfli əlaqələrə təkan verdi. Həmin zaman mətbuata bəyanatında İlham Əliyev vurğulamışdır ki, müstəqillik dövründə Ukrayna və Azərbaycan hər zaman bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini dəstəkləmişlər və bu dəstək liderlərin imzaladıqları Birgə Bəyannamədə də öz əksini tapıb.

Öz növbəsində Ukrayna Prezidenti mətbuata bəyanatında "Hesab edirəm ki, məhz bu gündən etibarən bizim strateji tərəfdaşlığımız sahəsində biz yeni səhifəni açacağıq", - deyə qeyd etmişdir.

Azərbaycan Rusiya-Ukrayna müharibəsinin başladığı andan etibarən bu ölkəyə humanitar dost köməyi göstərib və bu dəstək hazırda da davam edir. Prezident İlham Əliyevin tapşırığına əsasən, 2022-ci il fevralın 27-si və martın 12-də, yəni müharibənin başlamasından cəmi üç gün sonra Azərbaycan Ukraynaya ümumi dəyəri 21,5 milyon manatdan (11,5 milyon avrodan) artıq olan dərman vasitələri və tibbi vasitələr, eləcə də ərzaq və qida məhsulları göndərmişdir. Ötən müddət ərzində də ölkəmiz tərəfindən bu kömək davam etdirilmişdir. Bu il yanvarın 23-nə olan statistikaya əsasən, həmin zamana qədər Ukraynaya göndərilən və çəkisi 1050 tona yaxın olan yardımların ümumi dəyəri təxminən 30 milyon manata yaxındır. Həmçinin Azərbaycanın özəl şirkətləri və vətəndaşları da dəfələrlə Ukraynaya humanitar yardımlar göndərmişlər. Ukrayna böhranı ilə əlaqədar həmçinin Heydər Əliyev Fondu, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə xeyli sayda ukraynalı uşaq Azərbaycanın müxtəlif sosial-reabilitasiya mərkəzlərində müalicə almışlar.

Dost köməyini dəyərləndirərkən bir məsələni də qeyd etməmək olmaz. Rusiya-Ukrayna müharibəsi zamanı ciddi ziyan dəyən İrpen şəhərindəki Azərbaycanın görkəmli elm xadimi, oftalmoloq-alim Zərifə Əliyeva adına 12 nömrəli orta məktəbin Prezident İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti tərəfindən təmir edilməsi və ötən il sentyabrın 1-də məktəblilərin istifadəsinə verilməsi dost köməyinə daha bir nümunədir. Məktəbin açılışı zamanı direktor Valentina Antonenko ölkəmizə minnətdarlıq hisslərini belə bildirmişdir: "Müharibə zamanı Azərbaycan dövlətindən səmimi dostluq münasibəti gördük. Azərbaycan dövlətinə, xüsusilə Prezident İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm ki, müharibə zamanı ciddi ziyan görən məktəbin təmirinə göstəriş verib. "SOCAR Energy Ukraine" şirkəti, Azərbaycanın Ukraynadakı səfirliyi bu işə yaxından dəstək verib".

### "Ukraynaya göstərdiyiniz dəstəyi və köməyi növbəti dəfə hiss edirik"

Məlum olduğu kimi, bu yaxınlarda Ukraynanın Xerson vilayətində Kaxovsk Su-Elektrik Stansiyasında bənd partladılmış və nəticədə böyük ekoloji fəlakət baş vermişdir. Fəsadların aradan qaldırılması üçün Azərbaycan Ukraynaya növbəti humanitar yardım göndərmişdir. Ukrayna tərəfindən daxil olmuş müraciət nəzərə alınaraq, Prezident İlham Əliyevin tapşırığı ilə dost ölkəyə nasoslar, boru kəmərləri, rezin qayıqlar və müvafiq geyim əşyalarından ibarət olan yardım Polşanın Jeşuv Hava Limanına, oradan isə Ukraynaya çatdırılmışdır.

Ukraynanın ölkəmizdəki səfiri Vladislav Kanevski jurnalistlərə açıqlamasında humanitar yardıma görə minnətdarlığını bildirmişdir: "Bu yardımlar bizim üçün çox əhəmiyyətlidir. Bundan əlavə, Azərbaycan tərəfinin ayırdığı 20 ton yanacaq xilasetmə əməliyyatlarında istifadə olunan nəqliyyat vasitələrinə təqdim ediləcək. Bu, bizim strateji tərəfdaşlıq münasibətlərimizin nə dərəcədə inkişaf etdiyini bir daha sübut edir. Bu, Ukrayna və Azərbaycan xalqlarının səmimi dostluğudur".

Onu da qeyd edək ki, ölkəmizdən Ukrayna xalqına bir neçə dəfə dərman vasitələri, tibbi avadanlıq, tibbi sərf və ləvazimat malları, eləcə də ərzaq məhsulları və uşaq qidasından ibarət humanitar yardımlar göndərilib.

### Səmimi dost, etibarlı tərəfdaş

Bu il iyunun 1-də Moldovanın paytaxtı Kişineuda Prezident İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü zamanı da ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunmuşdur. Görüş zamanı Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara, ukraynalı uşaqlara göstərilən qayğıya və onların ölkəmizə səfərlərinin təşkil olunmasına görə təşəkkürünü bildirmiş və bunun çox yüksək qiymətləndirildiyini demişdir.

Gətirdiyimiz qısa nümunələrdən də göründüyü kimi, xalqlarımız arasındakı səmimi dostluq, ölkələrimiz arasındakı etibarlı tərəfdaşlıq Azərbaycan və Ukrayna hərtərəfli əlaqələrinin daha da inkişaf etməsinə və möhkəmlənməsinə xidmət edir. Bu sadalananlar həm də ona dəlalət edir ki, Azərbaycan xoş gündə olduğu kimi, dar, böhranlı günlərində də dostlarının yanındadır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 11 iyun.- S.4.